*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 119-122* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.119*

# Akademik İsa Həbibbəylinin “Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)” intellektual poeması Azərbaycan akademizm cərəyanı kontekstində

**Elnarə Qaragözova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: e.garagozova.bsu@gmail.com

**Annotasiya.** Akademik İsa Həbibbəylinin “Azərbaycan” jurnalının 2022-ci il 9-cu nömrəsində dərc olunmuş “Xəmsə XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)” poemasında akademikin Nizami və “Xəmsə” fenomeninə akademizm kontekstində elmi baxışı yer alıb. Ədəbiyyatımızda Nizami “Xəmsə”sinə bu kontekstdə baxışın ilkin nümunəsi olan poemada akademik Nizami və “Xəmsə”ni XXI əsr realilərinə uyğun yenidən yaratmışdır. Klassik mətn əsasında yaradılan, lakin tam fərqli bir əsər olan poema Nizami mövzularının yeni bədii həyatıdır. Bütün bunları nəzərə alaraq, əminliklə deyə bilərik ki, akademik İsa Həbibbəylinin “Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)” poeması Azərbaycan akademizm cərəyanının əsas xüsusiyyətlərini özündə əks etdirən ədəbi faktdır.
**Açar sözlər:** Nizami Gəncəvi, akademizm, poema, Xəmsə, XXI əsr

**Məqalə tarixçəsi:** göndərilib – 14.10.2022; qəbul edilib – 31.10.2022

# Academician Isa Habibbeyli’s intellectual poem “Khamsa – 21st century (dedications, quotations and poetic evaluations)” in context of Azerbaijani academicism trend

**Elnara Garagozova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: e.garagozova.bsu@gmail.com

**Abstract.** Academician Isa Habibbeyli's intellectual poem “Khamsa – 21st century (dedications, quotations and poetic evaluations)” published in the 2022 number 9 of “Azerbaijan” magazine contains the academician's view of Nizami and Khamsa in general in the context of academicism. It should be noted that in our literature there has never been an academic work on this topic. Bringing Nizami and “Khamsa” from the depths of history to today - the 21st century, he creates a completely different work based on the academic classic text and theme, which gives it a new life. Taking all this into account, we can confidently declare that academician Isa Habibbeyli's intellectual poem “Khamsa –21st century (dedications, quotations and poetic evaluations)” is a central text of Azerbaijani academicism trend.
**Keywords:** Nizami Ganjavi, academicism, poem, Khamsa, 21st century

**Article history:** received – 14.10.2022; accepted − 31.10.2022

## Giriş / *Introduction*

Dahi Nizami Gəncəvinin “Xəmsə”si özündən sonra Azərbaycan və Şərq ədəbiyyatında yeni və özümlü bir ənənə yaratmışdır. Nizami Gəncəvinin xələfləri olan şairlər, nəzmi-ustadlar böyük mütəfəkkirin Xəmsə ənənəsini davam etdirməklə yanaşı, onun əsərlərindən gələn mövzu və süjetləri, arxetipləri zaman-zaman yeni qiyafədə təqdim etmiş, Nizami mövzularında yaza bilmək ustadlıq imtahanı hesab edilmişdir.

## Əsas hissə / *Main Part*

Akademik İsa Həbibbəyli “Böyük Azərbaycan şairi Nizami” məqaləsində yazır: “İlk növbədə onu qeyd etmək lazımdır ki, Nizami Gəncəvi Şərq ədəbiyyatında, türk-müsəlman dünyasında “Xəmsə” (“beşlik”) adlanan poemalar silsiləsinin əsasını qoymuşdur. Böyük ustad sənətkardan sonra “Xəmsə” yaratmaq Şərq ədəbiyyatında ənənəyə çevrilmiş, bir çox xalqların şairləri “Beşlik” poemalar dəsti yaratmışlar”. Orta əsrlərdən gələn bu ənənə XX və XXI əsrlərdə də davam etmişdir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Nizami mövzuları kontekstində yaradılan bədii əsərləri aşağıdakı kimi qruplaşdırmaqla mövzunun işlənmə arealını və tezliyini əyaniləşdirə bilərik:

1. Çağdaş Azərbaycan ədəbiyyatında Nizami obraz və süjetlərinə əsaslanaraq yaradılan müasir nəzirə tipli əsərlər;
2. Müstəqillik dövrü ədəbiyyatımızda arxetiplərin dekonstruksiyası tendensiyası fonunda Nizaminin arxetipik süjetlərinin postmodern kontekstdə təqdimi;
3. Nizami mövzularına elmlə bədii təfəkkürün vəhdətində – akademizm cərəyanı kontekstində yanaşma.

Sonuncu bölgüyə daxil olan əsərlər XX əsr ədəbiyyatımızda element kimi mövcud olan akademizm cərəyanının XXI əsr ədəbiyyatımızda sərbəst cərəyana çevrilməyə başladığının faktiki təsdiqidir. Təsadüfi deyil ki, sovet dövründə “fizika lirika mübahisələri” adlandırılan fenomenin – bədii təfəkkürlə elmi təfəkkürün vəhdətinin son dövr ədəbiyyatımızda gücləndiyini müşahidə edən akademik İsa Həbibbəyli öz elmi fəaliyyətində bu cərəyanın tədqiqinə və ardıcıl izlənməsinə xüsusi diqqətlə yanaşır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Fizika-lirika”, “Ədəbiyyatşünaslıq plyus”, “Qoşa qanad” layihələri, “Ədəbiyyatşünaslıq plyus” Yaradıcılıq Birliyi akademikin bu sahədə gördüyü fundamental işlərə bariz nümunədir. Unikal bir layihə olan, ədəbiyyatşünas alimlərin bədii yaradıcılığını işıqlandıran “Ədəbiyyatşünaslıq plyus” Yaradıcılıq Birliyi akademizm cərəyanının Azərbaycan ədəbiyyatşünaslığında inkişaf tendensiyalarının araşdırılması baxımından böyük önəm daşıyır.

Akademik İsa Həbibbəylinin akademizm cərəyanının tədqiqi ilə bağlı həyata keçirdiyi layihələr onun Azərbaycan akademizminin həm elmi tədqiqinin banisi, həm də bu cərəyanın yaradıcısı mövqeyində dayandığının bariz sübutudur. Onun bədii əsərləri alimin elmi baxışlarının bədii siqlətli ümumiləşdirmələridir. Akademik İsa Həbibbəylinin elmi yaradıcılığında Nizami Gəncəvi ilə bağlı tədqiqlər önəmli mövqeyə malikdir. Nizamişünas, prof. Xəlil Yusifli akademik İsa Həbibbəylinin “Böyük Azərbaycan şairi Nizami Gəncəvi” monoqrafiyasından bəhs edərkən yazır: Prezidentin Sərəncamına uyğun olaraq bir çox beynəlxalq və respublika konfransları keçirilib, kitablar nəşr olunub. O cümlədən, Prezidentin Sərəncamına uyğun olaraq akademik İsa Həbibbəylinin “Böyük Azərbaycan şairi Nizami Gəncəvi” kitabı nəşr edilib. Bu kitab bütün əvvəlki kitablardan onunla fərqlənir ki, o təkcə Azərbaycan oxucusu üçün yazılmış kitab deyil, bütün dünya oxucularına ünvanlanmış bir əsərdir. Əsərdəki tədqiqat dünyanın on dilində verilib. Bu monoqrafiyanın müstəsna əhəmiyyəti ondadır ki, ilk dəfə burada Nizami Gəncəvi haqqında aparılmış tədqiqatlara mükəmməl bir yekun vurulmuş və onlar yeni mövqedən dəyərləndirilmişdir. Şairin tərcümeyi-halı ilə bağlı dəqiqləşdirmələr, atası, anası, qardaşı, dayısı, müəllimi və hamisi Xoylu İmad haqqında fikirlər bu kitabda aydın, məntiqi, elmi şərhini tapmışdır” [2, s.15].

Lakin akademikin böyük mütəfəkkirlə bağlı araşdırmaları yalnız elmi konktekstlə məhdudlaşmır. Akademik İsa Həbibbəylinin “Azərbaycan” jurnalının 2022-ci il 9-cu nömrəsində çap edilmiş

"Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)" intellektual poeması akademikin Nizami, ümumiyyətlə Xəmsə mövzusuna akademizm cərəyanı kontekstində baxışını özündə ehtiva edir. Qeyd etməliyik ki, ədəbiyyatımızda daha öncə bu mövzuda akademizm siqlətli bədii əsər olmamışdır.

"Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)" intellektual poeması 20 hissədən ibarətdir. Klassik Xəmsə ənənənəsinə uyğun olaraq, əsərin əvvəlində fəxriyyə və minacat verilmişdir. Lakin ənənədən fərqli olaraq, fəxriyyə müəllifə deyil, dahi Nizami Gəncəviyə həsr edilmişdir. Nizami Gəncəvinin ünvanını "əbədi" olaraq qeyd edən alim onun Gəncə doğumlu, azərbaycanlı olduğunu bu poemada bir daha qeyd edərək möhürləyir. Klassik Xəmsədə minacat dini səciyyəli olsa da, "Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)" intellektual poemasında bu ənənə əsərin ideyasına uyğun dəyişdirilmişdir. Bu intellektual poemada minacat Xəmsəyə, özəlliklə Nizaminin yaratdığı Azərbaycan ruhlu Xəmsəyə ithaf olunur, onun müqəddəsliyini, toxunulmazlığını vurğulayır. "Sirlər xəzinəsi"nə qəsidə" bölümündən sonra akademik İsa Həbibbəyli "Sirlər xəzinələri" bölümündə müasir dünyanının geopolitik mənzərəsini təqdim edərək Nizaminin ideyalarının cari həyatın güzgüsündə necə təhrif olunduğuna diqqət çəkir:

*Sirlər xəzinələri*
*XX əsrdə NATO,*
*XXI əsrdə Vatikan.*
*Süni yaradılmış yeraltı təkan.*
*Asiyada Çin səddi,*
*İnsan zəkasının son həddi.*
*Hindistanda Tacmahal.*
*Kəşmirdə şal.*
*Avropada Saqrada de Famil*
*Əsil intellekt yaradan amil.*
*Nuh peyğəmbərin gəmisi,*
*Əfqanıstanda xaş-xaş zəmisi.*
*"Sirlər xəzinəsi" – Nizami Gəncəvinin mənzum hekayətlər süləlsi,*
*Möhtəşəm sənət xülasəsi.*
*Ədəbiyyatın əbədiyyət anı,*
*"Xəmsə"nin proqramı. [1, s.9]*

İntellektual poemanın ən maraqlı bölümlərindən biri "Elm haqqında bir neçə söz – Eşqdən - elmə" adlı hissədir. Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındakı "Eşq haqqında bir neçə söz" məsnəvisinə iqtibas kimi qələmə alınan akademik-poetik nümunə akademizm cərəyanının mahiyyətini mükəmməl şəkildə ifadə edir. Enerji haqqında qanuna əsaslanaraq eşqin də heçdən yaranmadığını və heç zaman itmədiyini deyən, məhəbbətə ali abidə qoyan Nizaminin eşq adlandırdığı məfhumun akademik İsa Həbibbəyli tərəfindən məhz elmlə əvəz edilməsi yeni baxışdır. Eşqin ən ali növü, ən təmənnasızı, ən pakı və ədəbi yaşarı ELMdir:

*Həbibbəyli, elmdir dünyada işıq,*
*Qaranlıqdan yalnız elmlə çıxmışıq.*
*Elm ki, əbədi Prometeydir,*
*Aqillər üçün elm susmayan neydir.*
*Elm haqda danışmaq düşüb əlimə,*
*Yaşasın alimlər, eşq olsun elmə! [1, s.12]*

Fikrimizcə, poemanın bu hissəsini Azərbaycan akademizminin marşı kimi qəbul etmək olar.

"Xəmsə - XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)" intellektual poeması Nizami obrazlarının, süjetlərinin yalnız bədii sözdə və elmdə inikasının təzahürlərinin əksi ilə məhdudlaşmır. "Nizami Gəncəvinin obrazları XXI əsrdə" adlı bölümdə müasir dövrün klassik irsə bə-

zən yaradıcı, bəzən səthi istinadları intellektual formatda bəzən heyrət, yeri gəlikcə də ironik şəkildə mətnə gətirilmişdir. Beləliklə, Akademik İsa Həbibbəyli Nizami Xəmsəsindən gələn izlərin nəinki elmin və sənətin müxtəlif sahələrində, hətta cari həyatda belə necə transformasiyaya uğradığını göstərərək mövzunun əhatə dairəsini genişləndirir. Lakin istənilən halda akademik mövzunun bəzən klassik, bəzən də reinkarnativ şəkildə davam etdiyini və edəcəyini vurğulayır:

*“Xəmsə – XXI əsr” –*
*Nizami Gəncəvi sənətinə*
*Müasir dövrün*
*İntellektual baxış ünvanı.*
*Nizami Gəncəvi – Sönməz işıq seli dastanı.*
*Ölməz idealları yaşadır*
*Bu qüdrətli insanı.*
*Hər yeni əsrlə,*
*Hər gələn nəsillə*
*Yenidən davam edir NİZAMİ!...*
*Böyük gələcəyə doğru*
*Ədəbi yol gedir Nizami. [1, s.22]*

**Nəticə / *Conclusion***

Nizami və “Xəmsə”ni tarixin dərinliklərindən bu günə – XXI əsrə gətirərək ona yeni həyat verən akademik klassik mətnin və mövzunun bazisində tam fərqli bir əsər meydana qoyur. Bütün bunları nəzərə alaraq, akademik İsa Həbibbəylinin “Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr)” intellektual poemasının Azərbaycan akademizm cərəyanının əsas xarakterik xüsusiyyətlərini əks etdirdiyini tam əminliklə bəyan edə bilərik.

**Ədəbiyyat / *References***

1. Həbibbəyli, İ. Xəmsə – XXI əsr (ithaflar, iqtibaslar və poetik dəyərləndirmələr). – “Azərbaycan” jurnalı, №9, 2022.
2. Yusifli, X. Dünyaya ünvanlanan kitab. – “525-ci qəzet”, 26 dekabr 2021.

## Интеллектуальная поэма академика Иса Габиббейли “Хамсе – XXI век” (посвящения, цитаты и поэтические оценки в контексте Азербайджанского академизма

**Эльнара Гарагёзова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: e.garagozova.bsu@gmail.com

**Резюме.** Интеллектуальная поэма академика Исы Габиббейли “Хамсе – XXI век (посвящения, цитаты и поэтические оценки)”, опубликованная в № 9 журнала “Азербайджан” за 2022 год, содержит взгляд академика на Низами и “Хамсе” в целом в контексте академизма. Следует отметить, что в нашей литературе никогда не было академического произведения на эту тему. Перенося Низами и “Хамсе” из глубин истории в сегодняшний день – 21 век, он создает совершенно иное произведение, основанное на академическом классическом тексте, и дает ему новую жизнь. Принимая все это во внимание, можно с уверенностью заявить, что интеллектуальная поэма академика Исы Габиббейли “Хамса – XXI век (посвящения, цитаты и поэтические оценки)” является основой азербайджанского академизма.
**Ключевые слова:** Низами Гянджеви, академизм, поэма, “Хамсе”, XXI век